BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# AZƏRBAYCANIN PULAQƏDƏRKİ MÜBADİLƏ VASİTƏLƏRİ HAQQINDA

**Q.Ə.PİRQULİYEVA**
*AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu*

Arxeologiya elminin «Yanar çırağı» adlandırılan numizmatikanın yaranma tarixi 200 ilə yaxın bir zaman kəsiyini əhatə edir. Buna baxmayaraq, bu elmin bəşər cəmiyyətinin ən qədim dövrlərdən iqtisadi münasibətlərini öyrənməsində böyük əhəmiyyəti var.

Elmi araşdırmalara görə yer kürəsində pul və pul zərbi işi ilk dəfə bizim eradan əvvəl XII əsrdə Çində və Hindistanda başlamışdı. Bizim eramızdan əvvəl VII əsrdə bir-birindən tam xəbərsiz Kiçik Asiyada–lidiya dövlətində, yunan adası Egində, bir qədər sonra bütün Ellada və onun koloniyalarında, Romada, Finikiyada və İranda pul zərbi yaranmışdı. Bu qədim sivilizasiyalarda pulaqədərki uzunmüddətli tarixi dövrdə insanlar cürbəcür mübadilə vasitələrindən istifadə etmişlər. Belə mübadilə ekvivalentlərinin təyin edilməsində ilk pul nominallarının ayrı-ayrı əlamətləri əvəzedilməz rol oynamışlar. Qədim Romada ilk pullar «pecuma» adlanırdı, latın dilindən hərfi tərcümədə bu söz «qaramal, mal-qara» kimi başa düşülür. Bu cür pullar haqqında ilk yazılı mənbə yunan alimi Pliniyə aiddir. Belə ki, onun məlumatlarına görə Romada hökmdar Serviy Tullini hakimiyyəti illərində zərb edilən ilk bürünc pullar bu cür adlanırdı (3, s. 49). Bundan başqa Romada XIX əsrdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən şəhər xarabalıqlarından tapılan iri pul nominallarının üzərində öküz və qoyun obrazları göstərilmişdi (4, s. 3-5). Bununla da məlum olur ki, qədim Romada ilk mübadilə vasitəsi kimi mal-qaradan istifadə edilmişdi. İkinci ciddi arqument yenə də qədim latın dilində «kapital» sözünün tərcüməsidir. Bu söz «baş» kimi tərcümə olunur və indiyə qədər iqtisadiyyatda əsasən, mal-qaranın hesablanmasında əsas vahid əmsalıdır. Maraqlıdır ki, Rusiya ərazisində məskunlaşan slavyan tayfalarının leksikologiyasına daxil olan «skot – skotnisa» sözünün ilkin tərcüməsi xəzinə və ya dəfinə mənası daşıyaraq, orta əsrlərdə işlənilmişdi. Azərbaycanda bu günümüzə qədər ticarət əlaqələrinə daxil olan bütün əmtəələr «mal» sözü ilə ifadə olunur. Egində ilk zərb olunan pulların üzərində tısbağa obrazı zərb edilirdi. Pulların üzərində olan bu cür heyvan obrazları mübadilə vasitələri olmaqla yanaşı, həm də həmin xalqların dini dünyagörüşlərini özündə əks etdirirdi. Bu sırada dünyanın qədim mədəniyyətlərindən hesab edilən Milet, Fokey, Samosun ilk pullarının üzərində şir, Evbey adalarında dövriyyədə olan pullarda buzov, Sikionanın pullarında göyərçin, balıq obrazları zərb edilirdi. Ehtimal etmək olur ki, adı çəkilən mədəniyyətlərin daşıyıcıları pulaqədərki dövrlərdə mübadilə ekvivalenti kimi sitayiş etdikləri heyvanları yaddaşlarında saxlamış və zaman keçdikcə pul zərbi işi prosesində eyni obrazları metala köçürmüşlər. Belə faktlar təkcə döv-

lətəqədərki qədim dövrlərə şamil edilmir. Kanadada XIX əsrin əvvəllərinə qədər pulu əvəz edən mübadilə vasitəsi kimi bəzi heyvanların dərilərindən, xəzinədən istifadə olunması haqqında həm etnoqrafik, həm də faktoloji materiallar mövcuddur. Afrikanın okeansahili cəngəlliklərində XVII əsrə qədər acı badamdan, balıqqulağından daha geniş istifadə olunurdu (12, s. 101).

Numizmatika elmində bu cür mübadilə vasitələri «primitiv pullar» adlanır. Qeyd etmək lazımdır ki, bu məsələlərlə numizmatika ilə yanaşı, iqtisadçılar, etnoqraflar da məşğul olurlar.

Azərbaycan ərazisində pulaqədərki mübadilə vasitələri haqqında ayrı-ayrı elmi nəzəriyyələr ehtimal xarakteri daşıyır. «Azərbaycanda bizim eradan əvvəl VIII-VII minilliklərdə baş verən «neolit inqilabı» ibtidai mübadilənin inkişafına təkan vermiş və onu davamlı ictimai prosesə çevirmişdi. Tayfalararası mübadilələrin əsas vasitələri sırasında Azərbaycan ərazisində bu zaman (neolit və eneolit dövründə) eyni dərəcədə təbiətdən mənimsəmə yolu ilə (balıq, neft, ov məhsulları, dəri, meyvə növləri və s.) və ya istehsal prosesinin nəticələri (əmək alətləri, silahlar, bəzək əşyaları) ola bilərdi. Xariclə əmtəə mübadiləsində yəqin ki, təbii və işlənmiş vəziyyətdə olan daş (o cümlədən çaxmaqdaşı) növləri istifadə olunurdu» (10, s. 5). Ehtimal ki, Azərbaycanda ən qədim mübadilə əmtəəsi rolunda yaxın qəbilələr arasında yerli daşlardan hazırlanmış əmək alətlərindən istifadə olunmuşdu. Belə ki, keçən əsrin ortalarından Azərbaycanda aparılan arxeoloji qazıntıların nəticələrindən biri olan Quruçay mədəniyyətində belə istehsal xarakterli çoxsaylı daş alətlər aşkar edilmişdi. Elmdə bu daş əmək alətləri «Tağların daş məmulatları» kimi tanınır (2, s. 208-209). Belə daş əmək alətlərindən Azıx mağarasından mustye dövrünə aid mədəni təbəqədən aşkar olunmuşdu. Maraqlıdır ki, Tağların daş məmulatlarından Azərbaycanın digər eyni dövrə aid olan arxeoloji aibidələrində tapılmamışdı.

Burada əmtəə-pul münasibətlərinin ən qədim ekvivalent kimi kauri-cupraea – moneta – qarnıyarıq adlanan və əsasən Hind okeanından gətirilən balıqqulağından istifadə olunmuşdu. Belə balıqqulağıları əsasən dinc dövrü abidələrdən aşkar edilir. Arxeoloji tapıntılar əsasında bu gün elmdə Azərbaycanın qədim tayfalarının Yaxın Şərq və Ön Asiya ölkələri ilə ticarət əlaqələrini sübuta yetirə biləcək əsas maddi-mədəniyyət qalıqlarından məhz kaurilər hesab edilir (9, s. 4; 8, s. 137; 11, s. 9-11). Nəzərə alsaq ki, bu cür nadir tapılan balıqqulağı növləri Cənubi Qafqaza uzaq Hind okeanından davamlı və lazımi ola biləcək qədər gətirilə bilməzdi, deməli, daxili mübadilədə əsasən yerli əmtəələrdən istifadə olunurdu. Belə əmtəələr sırasında yuxarıda adı çəkilənlərdən başqa, eneolitdə belə bir əmtəə məşhur boyalı qablar da ola bilərdi.

Zaman keçdikcə metalın kəşfi ilə əlaqədar mübadilə ekvivalenti kimi insanlar misdən, tuncdan yararlanmağa başlamışlar. Arxeoloji materiallara əsasən, son tunc dövründən başlayaraq əmtəə mübadiləsində dəyər ekvivalenti kimi tuncdan tökmə üsulu ilə hazırlanan bəzək əşyalarından istifadə olunurdu. Belə məmulatlardan tuncdan hazırlanan, heç bir bəzəyi olmayan, standart çəki dərəcələrinə malik və ən vacibi numizmatik-metroloji baxımdan bir-birinə kvadrat nisbətində olan 1; 2; 4; 8 olaraq, orta çəkiləri 10, 20, 40, 80 qram olan bilərziklər və üzük növbələrini göstərmək olar. «Güman etmək olar ki, ilkin çəki normativi bu qaydada olan belə bilərziklər üçün Aşşur-Babil çəki sisteminə uyğun

olan, elmdə sigl (şekel) adlanan 10-11 qramlıq kiçik pul vahidi də eynilik təşkil edir. Bu da Azərbaycanın ticarət əlaqələrində inkişaf etmiş Ön Asiya ölkələrinin təsiri altında baş vermişdi» (10, s. 6). İlk dəfə Azərbaycanın ərazisində əcnəbilər tərəfindən Gədəbəy, Daşkəsən, Xanlar, Qarabağda aparılan qazıntılar zamanı belə dəqiq nəsildə tunc bilərziklər aşkar edilmişdi (5, s. 80-82; 6, s. 7). Konkret olaraq, Xocalı-Gədəbəy mədəniyyətinə aid olan geniş ərazilərdə keçən əsrdə aparılan arxeoloji qazıntıların nəticəsində əsasən qəbir abidələrindən tapılan və elmi təsnifatı verilən tunc bilərziklərin bəzən «dəfinə» formasında aşkarlanması, onlardan əsas mübadilə vasitəsi kimi istifadə olunmasını sübuta yetirir. «Bəzi qəbirlərdə təsadüf olunan öküz, at, maral, qoyun və s. kimi heyvanların dəfn adətləri, onların tunc məmulatları üzərindəki təsviri bir daha Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının həmin heyvanlara bir totem kimi sitayiş etdiklərilə sübutdur» (1, s. 98-99). Yəqin ki, daşdan tunca keçid dövründə, yəni-paleometal zamanında heyvanlardan mübadilədə istifadə etmişlər. Tuncdan hazırlanan bəzi əşyaların bir yerdə çoxlu sayda tapılması numizmatika elmində «əşya dəfinəsi» adlanır. Belə dəfinələr pulaqədərki insan cəmiyyətinin inkişaf pilləsinin iqtisadi göstəricilərindən hesab olunur. Bu qəbildən Avropanın bəzi yerlərindən tapılan və b.e.ə. 1300-1500 il bundan əvvələ, tunc dövrünün yetkin çağlarına aid olan tunc balta, tunc ox ucluqlarının dəfinələri də belə qiymətli tapıntılar sırasına daxildir.

Beləliklə, orta poleolit dövründən etibarən insanlar arasında mübadilə vasitələri kimi cürbəcür əmtəələrdən istifadə edilməyə başlanmışdı. Bu əmtəələr natural mübadiləyə aiddir, yəni hansısa bir icmanın və yaxud mədəniyyətin daşıyıcılarının mənimsəmə və ya istehsal pilləsində əldə etdiyi hər hansı bir vacib əmtəənin digərinə dəyişdirilməsi, bununla da daxili tələbatı ödəmək deməkdir. Dünyanın bir çox yerlərində erkən tunc dövründən başlayaraq, daha dəqiq ifadə etsək, birinci böyük ictimai əmək bölgüsü nəticəsində mübadilə daha da güclənmişdi. Dünya tarix elmində ayrı-ayrı əmtəə-pul növləri məlumdur. Onları ümumiləşdirərək aşağıdakı qruplara bölmək mümkündür:

1. Ərzaq məhsulları və istehlak malları – Çin çayı, Hindistan, İndoneziya duzu, Meksika kakaosu, Bakı nefti və s.
2. Əmək alətləri və dinlə əlaqədar olan əşyalar – Qədim Yunanıstandan, Konqodan nizə ucluqları, Azərbaycanın qəbir abidələri üçün hazırlanan boyalı qabları, Tağların daş məmulatı.
3. Bəzək əşyaları – tunc bilərziklər, üzüklər, «manıla», «kauri» adları altında tanınan nadir balıqqulağı növləri, qiymətli daşlardan hazırlanan kiçik həcmli qab nümunələri və s.

Bəzi əmtəə-pul nümunələri pulaqədərki inkişaf yolunda çox maraqlı dövrlərdən keçmişlər. Məsələn, əvvəlcə mübadilə kimi bəzi ölkələrdə istifadə olunan baltalar, sonralar yenidən «balta» formalı pullar kimi istifadə olunmuşdur. Belə formaca yeni, məzmunca qədimdən keçən bıçaq formalı, xış formalı pullardan Çində, Yaponiyada əhali heç bir çətinlik çəkmədən istifadə etmişlər.

Beləliklə, Azərbaycanın yerləşdiyi təbii-coğrafi şəraitin imkanlarına əsasən burada məskunlaşan ən qədim tayfalar və tayfa birlikləri həm öz aralarında, həm digər xalqlarda müəyyən iqtisadi ticarət əlaqələri yaratmışlar. Pulaqədərki çoxminillik dövrdə burada mübadilə ekvivalenti rolunda daşdan hazırlanan bəzi əmək alətləri, ayrı-ayrı bəzək nümunələ-

ri və digərlərinin adını çəkmək olar. Bununla da burada yaşayan insanların pulaqədərki qədim dövrlərdən başlayaraq bir çox xalqlarla iqtisadi-mədəni əlaqələrinin mövcudluğu təsdiqlənir.

**QEYDLƏR:**


1. Avşarova İ. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının dinc məmulatı (e.ə. XIV-XII əsrlər). Bakı: 2007.
2. Археология СССР. т.-1, М.: 1982.
3. Беляков А.С. Нумизматика – В кн.; «Введение в специальные исторические дисциплины». М.: 1990.
4. Бутковокий А.П. Нумизматика или история монет древних, средних и новых веков. М.: 1861.
5. Volfram Hagel, Yeva Ştrommenger. Qalakənd. Bakı: 1999.
6. Гуммель Я.И. Погребальный курган (№2) около Еленендорфа. Баку: 1931.
7. Гуммель Я.И. Раскопки к югу-западу от Ханлара в 1941 г. – Вестник Древний Истории, т. IV, М.: 1992.
8. Кушнарёва К.Х. Некоторые памятники эпохи поздней бронзы в Нагорном Карабахе. – В журн. «Советская археология» т. XXVII. Ленинград: 1957.
9. Пахомов Е.А. Монеты Азербайджана. Вып. 1, Баку: 1959.
10. Раджабли А.М. Нумизматика Азербайджана. Автореферат на соискание учебной степени д. и.н. Баку: 2000.
11. Сейфеддини М.А. Нумизматика Азербайджана. т. 1, Баку: 2000.
12. Фенглер Х., Гироу Г., Унгер В. Словарь нумизмата. М.: 1993.


**О ДОМОНЕТНЫХ СРЕДСТВАХ ОБМЕНА В АЗЕРБАЙДЖАНЕ**


**Г.А.ПИРГУЛИЕВА**


**РЕЗЮМЕ**


В данной статье рассматриваются домонетные эквиваленты обмена, которые по мнению учёных, употреблялись в Азербайджане начиная с глубокой древности.

По мнению автора статьи на нашей территории в среднекаменном веке имело место обмена каменными орудиями труда типа Таглара. В энеолите в этой роли население, возможно использовали гончарные изделия, домашний скот. В период поздней бронзы, ранней железы в употреблении входит бронзовые браслеты, калечки. Для обмена с внешним миром в это время использовали раковины – каури.

Так, на основе обнаруженных археологических материалов доказывается об имеющихся экономических отношениях древнеазербайджанских племен с сопредельными народами.


**ABOUT EXCHANGE MEANS TILL MONEY OF THE AZERBAIJAN**


**G.A.PIRGULIEVA**


**SUMMARU**


In this acticle wos devoted to exchange means till money in ancient times.

Clear up, different oquivalent had been used “mustye” since the prehistoric times up to IV century BC. in the territory of Azerbaiyan. Special working tools made of stone, the examples of dyed dishes, the bronse bracelets, the shell colled “kauri” were invented and marched in stone age.

Accoding to the searchiry the oldest tribes living in Azerbaijan have entered he economical relations with other people in this way.